# Kənd təsərrüfatı pandemiya dövründə

Koronavirus pandemiyası ölkələrin iqtisadiyyatına, kənd təsərrüfatına, eləcə də ərzaq təhlükəsizliyinə mənfi təsirini göstərməkdədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən tədbirlər nəticəsində koronavirusun geniş yayılmasının qarşısı alınaraq, insanların sağlamlığı qorunur. Bu gün Azərbaycanda koronavirus pandemiyası ilə ciddi mübarizə aparılaraq insanların həyatı xilas olunur, həmçinin əhalinin sosial rifahının yaxşılaşdırılması üçün tədbirlər görülür,postpandemiya dövründə iqtisadiyyatın inkişafı üçün proqramlar qəbul edilir.

Hər bir çətin şəraitdə ölkənin iqtisadiyyatının inkişafı və onun əhalisinin sağlam qalması üçün torpağa üz tutmaq yeganə çıxış yolu kimi nəzərdən keçirilib. Azərbaycan kənd təsərrüfatı məhsulları ilə özünü təmin etməyə imkanı olan ölkədir. Hazırda respublikamızın ümumi torpaq fondu 8,6 milyon hektar olsa da, onun yalnız 4,5 milyon hektarı kənd təsərrüfatı üçün yararlıdır. Eroziya, şoranlaşma, bataqlıqlaşma, kimyəvi çirklənmə və s. proseslərin təsiri nəticəsində torpaqların deqradasiyası baş verməkdədir. Əkinə yararlı torpaqların 181,6 min hektarının işğal altında olması səbəbindən mövcud ehtiyatların məhdudluğunu xüsusilə vurğulamaq lazımdır.

2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə qeyd olunduğu kimi, dünyada iqlim dəyişikliyi ilə bağlı böyük narahatlıq var. Bəzi proqnozlar onu göstərir ki, Azərbaycanda bəlkə on ildən, iyirmi ildən sonra səhralaşma prosesi də istisna deyil. Ona görə biz bəri başdan buna hazır olmalıyıq. Keçən ilin quraqlığı bizə çox böyük problem yaratmışdı və hətta yaşlı insanlar belə quraqlıq xatırlamırlar. Bu il də quraqlıq və güclü istilər var. Ona görə su ehtiyatlarımızın səfərbər olunması, onlardan səmərəli istifadə edilməsi prioritet məsələyə çevrilir.

Prezident İlham Əliyevin həmin müşavirədə bu sahədə ciddi irəliləyişə nail olmaq üçün xüsusi komissiya yaradılması barədə tapşırığına uyğun olaraq, artıq həmin komissiya yaradılıb. Bu, Prezidentimizin söylədiyi, “Biz suyun hər bir damcısının qədrini bilməliyik” tövsiyəsinin reallaşdırılmasına başlanılmasının əyani nümunəsidir.

Digər tərəfdən, ölkə ərazisində su ehtiyatları yaratmaq məqsədilə sutoplayıcı ərazilərdə (vadilərdə) meşələrin bərpası və yağan yağış və qar çöküntülərinin maksimum torpağa keçməsi üçün müxtəlif mühəndis-texniki (yamaclarda yerüstü axını ləngidən, suyu torpağa hopduran şırımların çəkilməsi, kolluqların əkilməsi və digər üsullardan istifadə edərək su ehtiyatlarının toplanması) tədbirlərin həyata keçirilməsi də həllini gözləyən vacib məsələlərdəndir.

Əminik ki, Prezident İlham Əliyevin diqqət və qayğısı ilə postpandemiya dövründə də kənd təsərrüfatının sürətli inkişafı təmin ediləcək, ölkəmiz heç kimdən asılı olmayacaq, insanların ərzaq məhsullarına olan tələbatı daxili imkanlar hesabına ödəniləcək. Azərbaycan pandemiya dövründə olduğu kimi, pandemiyadan sonrakı dövrdə də dünyanın ən qüdrətli dövlətlərindən biri olduğunu sübuta yetirəcək.

**“Qəbələ”**

# Regionların sosial-iqdisadi inkişafı

Azərbaycan Respublikasının regionları yeni inkişaf mərhələsindədir. Dövlət başçısı cənab İlham Əliyev 2009-cu il aprelin 14-də təsdiq etdiyi “ Azərbaycan Respublikasının regionlarının 2009-2013-cü illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı” yaradır.Belə ki, adı çəkilən sənəddə ölkə regionlarının mövcud potensiallarından daha da səmərəli istifadə etməklə yerlərdə sənaye sahələrinin və kənd təsərrüfatının inkişafini sürətləndirmək, bu işdə sahibkarlara hərtərəfli dəstək olmaq, əhalinin yaşayış səviyyəsini daha da yaxşılaşdırmaqla yoxsulluq probleminin həllinə nail olmaq və respublikamızı iqtisadi cəhətdən hərtərəfli inkişaf etdirmək dövlətin qarşisinda əsas vəzifə kimi qoyulmuşdur. 2004-cü il 11 fevral tarixli fərmanda “ Azərbaycan respublikasinin regionlarının 2004-2008-ci illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı”na hər şeyi daxil etmək mümkün deyildi. Bu gün isə məhz regional proqramın uğurla həyata keçirilməsi nəticəsində ciddi regional iqtisadi potensial formalaşmış və artıq Azərbaycanda əksər sahələrin, bir cox bölgələrin konkret inkişaf proqramları işlənib hazırlanmış, eləcə də müvəffəqiyyətlə icra olunmaqdadır. Dünya iqtisadiyyatının böhranla üzləşdiyi bir dövrdə Azərbaycan sənayesi qeyri-neft sektorunda da inkişafa nail olmuşdur.

Dövlətin sosialyönümlü iqtisadiyyat quruculuğu və insanların layiqli iş yerləri ilə təmin edilməsi istiqamətində apardığı siyasət bu gün Qəbələ rayonunda da yeni iş yerlərinin açılmasına,-sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın inkişafına güclü təkan vermişdir. Qəbələdə son illər taxılçılıq, heyvandarlıq, tütünçülük, üzümçülük, baramaçılıq daha da inkişaf etdirilmişdir ki, bu da məşğulluğun artmasına və sosial rifahın yaxşılaşdırılmasına gətirib çıxarmışdır.

Aqrar sahə qeyri-neft sektorunun ən aparıcı sahəsi elan edilib: “Aqrar sahənin daha da inkişafı üçün dövlət tərəfindən çox böyük dəstək tədbirləri həyata keçirilir. O cümlədən, aqrar sahədə texnika təminatı ilə bağlı dövlət tərəfindən güzəştlər tətbiq edilir. Baramaçılığın inkişafına göstərilən dövlət dəstəyi nəticəsində bu sahə yenidən dirçəlib, 15,5 ton barama istehsal edilib, baramaçılığın yem bazasının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb, 10 min yeni ting əkilərək, ümumi tinglərin sayı 197 minə çatdırılıb. Rayonda üzümçülüyün və bağçılığın inkişafı da diqqət mərkəzində saxlanılır. Üzüm bağlarının sahəsi 421 hektara çatdırılıb. Son illər 2000 hektardan çox yeni fındıq bağları salınıb, mövcud bağların sahəsi 7069 hektara çatıb. 2019-cu ildə rayonda 8,7 min ton fındıq tədarük edilib, məhsul satışından 26 milyon manatdan çox gəlir götürülüb, fındıq tədarükünə 20 min nəfərdən çox işçi cəlb olunub. Tədarük edilən fındıq Qəbələ fındıq zavodunda emal olunaraq İtaliya, Almaniya və Rusiyaya ixrac edilib. Taxıl əkinlərinin 14 min 558 hektarını buğda, 4 min 892 hektarını arpa sahələri təşkil edir. Hazırda təsərrüfatlarda arpa biçininə başlanılmışdır və cari mövsümdə Qəbələ rayonunda 19 min 450 hektar taxıl sahələrinin məhsulunun biçilməsi nəzərdə tutulur. 2019-cu ildə rayonda ümumilikdə, 1714 sahibkarlıq subyekti fəaliyyətə başlayıb, 3206 yeni iş yeri yaranıb. Qəbələ rayonunda 2003-cü ildən bu günə kimi ümumilikdə, 12005 sahibkarlıq subyekti yaradılıb, 23072 yeni iş yeri açılıb ki, bu da insanların sosial rifahının yaxşılaşmasına gətirib çıxarır.Bununla yanaşı, rayonumuzda tikinti-quruculuq işləri də davam etdirilir. Ötən il əhalisi 14 min nəfər olan Qəbələ şəhərinin su-kanalizasiya sistemi istifadəyə verilib və rayonda qazlaşdırma işləri 86 faizə çatdırılıb. Cari ildə daha üç kəndin və bir yaşayış massivinin qazlaşdırılması nəzərdə tutulur. Yaşayış məntəqələrinin elektrik təsərrüfatının yenidən qurulması işləri davam etdirilir. 20 min əhalisi olan 10 yaşayış məntəqəsinin rayonla məsafəsini 25 km qısaldacaq Bum çayının üzərindəki yeni körpünün tikintisi, 25 kilometrlik Əmirvan-Seyidqışlaq-Vəndam avtomobil yolunun tikintisinin yekunlaşması üçün hazırlıq işləri aparılır. Tikintisi davam etdirilən 43 kilometrlik uzunluğu olan Ləki-Qəbələ dəmiryolu xətti də regionumuzun turizm sahəsində potensialını daha da gücləndirir və rayonumuzun sosial-iqtisadı inkişafına böyük imkanlar yaradır. Qəbələ turizm potensialına malik əlverişli bir bölgə olduğu üçün turizm sektoru burada yüksək dərəcədə inkişaf etdirilmişdir. Ötən il rayonumuza dünyanın 45 ölkəsindən təqribən 121 min əcnəbi, 65 min yerli turist səyahət etmişdir.

Bu gün Qəbələ turizim sahəsində dünyanın qabaqcıl ölkələri ilə rəqabət apara biləcək bir məkana çevrilib. İslam əməkdaşlıq Təşkilatının turizm nazirlərinin Banqladeşin Dəkkə Şəhərində keçirilmiş 10-cu konfransında Qəbələ şəhəri 2020 ci il üçün İslam Turizm paytaxtı seçilib.

**Elnur MƏMMƏDOV**
**Qəbələ Beynəlxalq Avtovağzal MMC-nin əməkdaşı.**

# Buraxılış imtahanları keçirildi

Bildiyimiz kimi, bütün dünyada insanların həyat tərzinin dəyişməsinə səbəb olan və onları təşvişə salan yeni koronavirus (COVİD-19) pandemiyası təhsil sahəsinə də təsir göstərmişdir.



Lakin təhsil sistemində yeni üsula keçilməklə tədris müəssisələrində fasilələrə yol verilməmişdir.

Pandemiya ilə əlaqədar online təhsil formasına keçən təhsil sistemində teledərslər, videodərslər və digər elektron tədris resurslarından səmərəli istifadə olunmuşdur. “Dərs vaxtı” və “Virtual məktəb” imkanları vasitəsilə müəllimlər fədakarlıqla şagirdlərin təhsildə geri qalmasına yol verməmişlər.

Rayonumuzda da virusun tüğyan etdiyi bir vaxtda məktəblərdə tədris yeni formatda davam etdirilmişdir. Artıq dərs ili başa çatmışdır. Buraxılış sinifləri üzrə imtahanlar verilmişdir. Əlbəttə bu imtahanlar zamanı koronavirus (COVİD-19) pandemiyasından qorunmaq üçün lazımi qaydalara əməl olunmuşdur. Məktəblərdə imtahan otaqlarında dezinfeksiya işləri aparılmış, qoruyucu vasitələrdən istifadə olunmuşdur. Kütləviliyin və təmas hallarının qarşısını almaq məqsədilə şagirdlər imtahan binasına müxtəlif vaxtlarda daxil olmuş, ara məsafə saxlanılmış və maskadan istifadə olunmuşdur.

Başa vurduğumuz tədris ilində 1342 nəfər şagird 9-cu sinif, 1145 şagird isə 11-ci sinif üzrə buraxılış imtahanlarında iştirak etmişlər.

İmtahanlar saat $11^{00}$-dan $14^{00}$-dək keçirilmişdir.

Buraxılış imtahanlarında Vəndam qəsəbə 1 saylı məktəbdən iki nəfər şagird 294 və 297 bal, şəhər 4 saylı məktəbdən isə bir nəfər şagird 294 bal toplamışdır.

11-ci sinif üzrə buraxılış imtahanları verən şagirdlərimiz ali məktəblərə qəbul imtahanlarının II turuna hazırlaşırlar.

Həmçinin rayon məktəbləri arasında yeni tədris ili üçün I sinfə qəbul da keçirilir.

Növbəti tədris ilinin birinci sinfinə təxminən 1700 nəfər şagird qəbulu nəzərdə tutulmuşdur.

**“Qəbələ”**

# Taxıl biçini davam edir

Koronavirus pandemiyası insanların həyatını təhlükə altına qoyan, ciddi sağlamlıq



problemləri yaratmaqla bərabər mənfi fəsadları hələ uzun müddət hiss olunacaq sarsıdıcı qlobal sosial iqtisadi təhlükələr də yaratmışdır. Ancaq kənd təsərrüfatı sahələrində bütün çətinliklərə baxmayaraq işlər davam etdirilir. Xüsusilə taxıl yığımında rayonumuzun kənd təsərrüfatı işçiləri taxıl biçinini havaların biçin üçün münasib hava şəraitini nəzərə alaraq vaxtında və itkiyə yol vermədən başa çatdırmaq əzmi ilə çalışırlar.

Rayonumuzda taxıl biçini başa çatmaq üzrədir. 19 min 450 hektar taxıl sahəsinin demək olar 17 min hektarında biçin başa çatmışdır. Hər hektardan 33 sentner taxıl əldə olunmuşdur. Biçin zamanı taxılın itkisiz və biçinin tez başa çatması üçün bütün texniki vasitələrdən istifadə olunmuşdur.

**“Qəbələ”**